# Azərbaycanda Özbəkistan Kino Günləri keçirilir

**Azərbaycan və Özbəkistan kino ustalarının birgə lentə aldıqları filmlər iki qardaş ölkənin sıx mədəni əlaqələrinin göstəricisidir. Tamaşaçıların yaxşı xatırladığı "Görüş", "Çətirimiz buludlardır", "Beyin oğurlanması", "Qırmızı qatar" kimi filmlər buna misal ola bilər. Bu gün də kino xadimlərinin işgüzar əlaqələri davam edir.**

Mədəniyyət Nazirliyinin dəstəyi, Özbəkistanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə Nizami Kino Mərkəzində Özbəkistan Kino Günlərinin açılışı olub. Mərasimdə kinoşünas, Əməkdar incəsənət xadimi Ayaz Salayev, Azərbaycan Dövlət Film Fondunun direktoru, kinorejissor və ssenarist Cəmil Quliyev, Mədəniyyət Nazirliyinin audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov çıxış edərək özbək kinematoqrafçılarının Şərq kinosunda və postsovet məkanında müstəsna xidmətlərindən bəhs ediblər. Qeyd olunub ki, keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında ən çox Özbəkistan kino xadimləri fəxri adlara, dövlət mükafatlarına layiq görülüblər.



Bu sıradan olan rejissorlar arasında Kamil Yarmatov Sosialist Əməyi Qəhrəmanı adını alıb və hazırda "Özbəkfilm" kinostudiyası onun adını daşıyır. Özbəkistanın məşhur aktyorlarından olan SSRİ Xalq artisti Şükür Burxanov bizim "Qızıl qaz" filmində çəkilib. Nelli Ataullayeva "Görüş"də Lalə rolunu canlandırıb. Tamara Şakirova Azərbaycanın üç – "Çətirimiz buludlardır", "Beyin oğurlanması", "Qırmızı qatar" filmlərində rollar alıb. Özbəkistanın Xalq artisti Ulmas Aliqocayev də bu sonuncu filmdə yer alıb.

Mərasimdə bildirilib ki, son iki il ərzində Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən beynəlxalq film festivallarında Azərbaycanın gənc kinematoqrafçıları, rejissorları tammetrajlı, sənədli və qısametrajlı filmləri ilə iştirak edirlər. Builki festivalda Azərbaycan kino günləri çərçivəsində bir neçə film – Ayaz Salayevin "Torpaq" sənədli filmi, rejissor İlqar Nəcəfin "Suğra və oğulları" filmi nümayiş olunub.

Qeyd edilib ki, Azərbaycanla Özbəkistanı təkcə kino sənəti birləşdirmir. Tarixən ədəbiyyat və maarifçilik sahəsində də hər iki ölkəni təmsil edən şairlər, mütəfəkkirlər və maarifçilər olub. Məsələn, azərbaycanlı maarifpərvər Səid Rza Əlizadə Səmərqənddə ilk Cədid məktəbini açmış, qəzet və jurnallar çap etdirmiş, Mahmud Xoca Behbudi ilə teatr tamaşaları səhnələşdirmişdir. Onun təşəbbüsü ilə Özbəkistanda teatrsevərlərə Üzeyir Hacıbəylinin pyesləri təqdim edilmişdir. Mədəniyyət Mərkəzinin layihəsi ilə hər il Azərbaycan müəlliflərinin əsərləri özbək dilində, özbək müəlliflərinin əsərləri isə Azərbaycan dilində nəşr edilir. Özbəkistanın Xalq şairi Camal Kamal, azərbaycanlı alim, türkoloq və tərcüməçi Ramiz Əsgər və başqaları tərcümə sahəsində məhsuldar fəaliyyət göstərirlər.

Tədbir Özbəkistandan gəlmiş incəsənət xadimləri və kinematoqrafçıların rəngarəng çıxışları ilə davam edib. Qonaqlar belə bir tədbir çərçivəsində Azərbaycanda olduqlarından məmnunluqlarını ifadə edib və iki dost ölkə arasındakı sənət mübadiləsindən söz açıblar.

Sonda "Əbədi dostluq və qardaşlıq" filmi nümayiş etdirilib.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 9 dekabr.- S.11.